# 2025 TOPÇUBAŞOV ARBİTRAJ MÜSABİQƏSİ

# MÜSABİQƏ İŞİ

Müəllif:
Nurlan Mustafayev

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ **TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Veb-sayt: mcs.bsulawss.org/arbitration/

E-poçt: mootcourtsociety@bsulawss.org

**Vəkil Conatan Klark**

"Clarke & Partners" MMC
Ünvan: 22 Bishopsgate, London, Birləşmiş Krallıq
Tel: +44 20 0000 7890; Faks: +44 20 0000 7891
E-poçt: j.clarke@clarkepartners.com

*30.05.2024 tarixində ICC Case Connect vasitəsilə*

Beynəlxalq Ticarət Palatası, Beynəlxalq Arbitraj Məhkəməsi
Baş katib cənab Aleksandr G. Fessas
Ünvan: 33 – 43 Prezident Vudro Vilson prospekti, 75116 Paris, Fransa

Hörmətli cənab Fessas,

Təmsil etdiyim Omex Energy BVI Şirkəti adından ICC Qaydalarının 4-cü maddəsinə uyğun olaraq əlavə edilmiş Arbitraj bildirişini təqdim edirəm. Bu arbitraj icraatında Omex Energy BVI Şirkətini təmsil etməyə icazə verən etibarnamənin surəti də əlavə olunur.

İddianın qeydiyyatı haqqı ödənilib.

Bu arbitraja əsas olan saziş arbitraj yerinin Bakı şəhəri olmasını və arbitrajın Azərbaycan dilində aparılmasını nəzərdə tutur. Arbitraj maddəsində üç arbitrin iştirakı nəzərdə tutulur. Omex Energy BVI məhkəmənin ilk üzvü kimi Prof. Dr. Villiam Fosterin namizədliyini irəli sürür.

Tələb olunan sənədlər əlavə olunur.

Hörmətlə,
Vəkil Klark

**Qoşma:**

1. *Arbitraj bildirişi və qoşmaları;*
2. *Etibarnamə (təqdim edilmir);*
3. *Prof. Dr. Villiam Fosterin CV-si (təqdim edilmir).*

Omex Energy BVI tərəfindən

(Böyük Britaniyanın Vircin adaları, Road Town, Wickhams Cay 1, Omex Energy BVI Baş ofisi)

Arkadiya Respublikasının Dövlət Enerji Şirkətinə (ARKEN) qarşı

(Arkadiya Respublikası, Nova Arkada, 125 Müstəqillik Prospekti, ARKEN Baş ofisi)

30.05.2024

## ARBİTRAJ BİLDİRİŞİ

Hazırkı bildiriş ilə Omex Energy BVI (“İddiaçı”) Beynəlxalq Ticarət Palatasının (ICC) Arbitraj Qaydalarına əsasən Arkadiya Respublikasının Dövlət Enerji Şirkətinə (“Cavabdeh”) qarşı arbitraj iddiası qaldıraraq Beynəlxalq Ticarət Palatasının (ICC) Beynəlxalq Arbitraj Məhkəməsinə müraciət edir.

### FAKTLAR

İddiaçı Omex Energy BVI (bundan sonra – İddiaçı) 2000-ci ildə Böyük Britaniyanın Vircin adalarında təsis edilmiş, neft və qaz yataqlarının istismar müddətinin artırılması üçün Süni İntellekt (Sİ) əsaslı həllər üzrə ixtisaslaşmış ortamiqyaslı şirkətdir.

İddiaçı Arkadiya bazarına daxil olmamışdan əvvəl bir neçə inkişaf etməkdə olan ölkədə köhnə yataqların bərpası sahəsində geniş təcrübəyə malik idi. 2015-ci ildə İddiaçı Arkadiya Respublikasının Dövlət Enerji Şirkəti (bundan sonra – Cavabdeh) ilə əlaqələr yaradaraq quruda yerləşən Savalan yatağının bərpası üçün rəqabətədavamlı təklif irəli sürdü. İddiaçı təklifində Sİ əsaslı xüsusi yataq idarəetmə sistemi olan "Argus" sistemini də vurğulayaraq istehsal həcminin əhəmiyyətli dərəcədə artırılmasına dair vədlər verdi.

Tərəflər arasında 1 avqust 2015-ci ildə Savalan yatağı üçün “İyirmi beş illik bərpa və hasilatın pay bölgüsünə dair” Saziş (bundan sonra – HPBS və ya Saziş) imzalanmışdır. (**Qoşma İ-001**) Saziş istehsalın artırılması, investisiya qoyuluşu, Arkadiyanın qanunvericiliyinə uyğun mənfəət bölgüsü ilə bağlı öhdəlikləri əhatə edirdi. HPBS çərçivəsində İddiaçı Yatağın modernləşdirilməsi, istehsal həcminin artırılması və əhəmiyyətli istehsal hədəflərinə çatmaqla bağlı öhdəliklər qəbul etmişdir. Cavabdeh isə öz növbəsində İddiaçıya Yataq, mövcud quyular, qurğular və avadanlıqlar üzərində müstəsna hüquqlar vermişdir. Savalan yatağında həyata keçiriləcək fəaliyyətlə bağlı ictimaiyyəti məlumatlandırmaq məqsədilə Yatağın istismarı, hasilat səviyyəsi, texnoloji yeniliklər və Tərəflərin öhdəliklərini əks etdirən rəsmi press-reliz dərc edilmişdir. (**Qoşma İ-002**)

Razılaşdırılmış plana uyğun olaraq işləri görməyə başlayan İddiaçı ikinci əməliyyat ilinin sonunda Savalan yatağındakı istehsalın 15% artırılmasına nail olmuşdur. Obyektiv səbəblərdən HPBS üzrə nəzərdə tutulan hədəfə tam çatmaq mümkün olmasa da, Sazişin əsas məqsədini rəhbər götürməklə hasilatın azalmasının qarşısı alınmış və əhəmiyyətli artıma nail olunmuşdur.

İddiaçı hasilatın optimallaşdırılması üçün əldə etdiyi investisiyanı bütöv həcmdə yeni quyuların qazılmasına həsr etmək əvəzinə, daha səmərəli yanaşma tətbiq edərək mövcud əməliyyatlara Sİ əsaslı texnologiyalar və suvurma metodlarını inteqrasiya etmişdir. Bu yanaşma bütün Tərəflər üçün uzunmüddətli iqtisadi fayda yaratmağı hədəfləsə də, Cavabdeh bu metodların istifadəsi ilə bağlı öz narazılığını bildirmişdir. Bu məsələ barədə Tərəflər məktub mübadiləsi aparsa da, ortaq məxrəcə gələ bilməmişdirlər. Bununla yanaşı, İddiaçı Yataqda fəaliyyətə başladıqdan sonrakı ilk fəaliyyət dövründə görülən işlər, hasilat səviyyəsi və investisiya tədbirlərini əhatə edən yekun hesabat dərc etmişdir. (**Qoşma İ-003**)

İddiaçı planda nəzərdə tutulan proqnozlara çatsa da, qlobal neft qiymətlərinin əhəmiyyətli dərəcədə aşağı düşməsi, işin miqyası, inflyasiya, habelə Arkadiyada ixtisaslı işçi qüvvəsinə artan tələbat səbəbindən çoxalan əməliyyat xərcləri layihənin gəlirliliyinə kəskin təsir etmişdir. Həmçinin Arkadiya qanunvericiliyində ekoloji qaydaların sərtləşdirilməsi, ixtisaslı işçi qüvvəsi üçün minimal kvotanın artırılması və hasilat üsulları üçün mürəkkəb icazə prosedurlarının tətbiqi İddiaçının xərclərini xeyli artırmışdır. Əlavə olaraq, İddiaçı "Argus" sisteminin köhnəlmiş yataq infrastrukturuna inteqrasiya edilməsi ilə bağlı da gözlənilməz çətinliklərlə üzləşmişdir.

Daha sonra Cavabdeh investisiya məsrəflərinin geri qaytarılması müddəalarının təfsiri ilə bağlı mübahisə yaratmış və "Argus" sistemi üçün çəkilən 20 milyon dollarlıq xərcin HPBS-yə uyğun olmadığını iddia edərək bu ödənişdən imtina etmişdir.

Eyni zamanda HPBS-nin 14-cü maddəsində nəzərdə tutulmuş Yerli bazar nefti ilə bağlı tənzimləmə Tərəflər arasında mübahisəyə səbəb olmuşdur. İddiaçı dünya bazar qiymətindən aşağı qiymətə və hasilatın 20%-i həcmində Yerli bazar neftini Cavabdehə tədarük etməyin gəlir marjalarını əhəmiyyətli dərəcədə azaltdığını, bunun nəticəsində isə Savalan yatağının gələcək inkişafı, həmçinin texnologiya təkmilləşdirmələrinə yenidən investisiya yatırma qabiliyyətinin məhdudlaşdığını qarşı tərəfə izah etmişdir. Buna görə də İddiaçı bu müddəanın yenidən müzakirə edilməsini təklif etsə də, Cavabdeh bu təklifi qəbul etməmişdir. (**Qoşma İ-004**) İddiaçı bunun texniki çətinliklər və logistik məhdudiyyətlər səbəbindən baş verdiyini və öhdəliklərini yerinə yetirmək üçün hər cür səy göstərdiyini bildirsə də, Cavabdeh Yerli bazar neftinin çatdırılması ilə bağlı iddia edilən çatışmazlıqlara görə İddiaçıya bir neçə dəfə cərimə tətbiq etmişdir.

Dəyişən neft qiymətləri, artan əməliyyat xərcləri, tənzimləyici yüklər və Yerli bazar nefti tələblərinin birləşmiş təsiri kimi obyektiv səbəblərdən maliyyə gərginliyi ilə üzləşən İddiaçı Cavabdeh tərəflə görüş təşəbbüsü irəli sürmüşdür. Tərəflər yaranmış mübahisələri həll etmək məqsədilə görüş keçirərək öz hüquqi mövqelərini ortaya qoysalar da, danışıqlar nəticəsiz qalmışdır. (**Qoşma İ-005**).

Pandemiya 2020-ci ildə dünya miqyasında neft qiymətlərinin aşağı səviyyədə qalmasına səbəb olmağa davam edirdi. Bu fors-major vəziyyət İddiaçının gəlirinə kəskin şəkildə təsir etmiş və layihənin maliyyə dayanıqlılığına şübhə yaratmışdır. İddiaçı HPBS-nin müvafiq maddəsində qeyd olunmuş fors-majora istinad edərək pandemiyanın onun iradəsindən asılı olmayan bir hal olduğuna dair hüquqi əsas gətirmişdir. Bu səbəbdən, xüsusilə minimum

investisiya hədlərinə, istehsal hədəflərinə və Yerli bazar üzrə neft öhdəliklərinə dair vəzifələrini tam icra edə bilmədiyini vurğulamışdır.

Cavabdeh bu arqumentlə razılaşmadıqda İddiaçı bildirmişdir ki, hətta mövcud vəziyyət fors-major hal kimi qiymətləndirilməsə belə, beynəlxalq kommersiya hüququ və İngilis hüququna əsasən çətinlik prinsipi *(principle of hardship)* İddiaçının məsuliyyətini istisna etməli və ya Tərəflər dəyişən şəraitə uyğunlaşmaq üçün Sazişi yenidən müzakirə etməlidirlər. İddiaçı pandemiyanın qlobal neft bazarına təsirinin dramatik və gözlənilməz xarakterini vurğulayaraq bunun HPBS-nin mövcud iqtisadi modelini əsaslı şəkildə dəyişdirdiyini iddia etmişdir. İddiaçı ödəniş cədvəlinin yenidən hazırlanmasını, Yerli bazar neft kvotasının müvəqqəti azaldılması və müəyyən tənzimləyici tələblərin yüngülləşdirilməsini təklif etmişdir. Cavabdeh isə bu təklifləri qəbul etməmişdir.

Maliyyə vəziyyətinin zəifləməsi səbəbindən İddiaçı beynəlxalq kreditorlardan əlavə maliyyə mənbələri cəlb etmək üçün bir sıra addımlar atmışdır. Bununla belə, Cavabdeh ilə davam edən mübahisələr, qeyri-sabit bazar şərtləri yeni kapitalın cəlb edilməsini çətinləşdirmişdir. İddiaçı həm də borclarını geri tələb edən bankların əlavə təzyiqlərinə məruz qalmışdır. Buna görə də o, əməliyyatlarını yenidən təşkil etmək və dövlət tərəfindən dəstəklənən maliyyələşdirmə mənbələri əldə etmək məqsədilə müxtəlif alternativləri nəzərdən keçirmiş, lakin bu cəhdlər nəticəsiz qalmışdır.

16 mart 2023-cü ildə Cavabdeh investisiya öhdəliklərinin, istehsalat hədəflərinə dair şərtlərin, yerli bazarda neft təchizatındakı çatışmazlıqların və ətraf mühitin qorunması ilə bağlı qaydaların ciddi şəkildə pozulduğunu əsas gətirərək İddiaçıya defolt bildiriş göndərmişdir. İddiaçı daha sonra ARKEN-in artıq Savalan yatağında nəzarəti ələ almaq üçün başqa bir operatorla danışıqlar apardığını müəyyən etmişdir. İddiaçı açıq qalmış məsələlərin həlli üçün xoşniyyətli danışıqlara başlamağı təklif etsə və öz etirazlarını bildirsə də, Cavabdeh bunları qəbul etməmiş və 20 iyun 2023-cü il tarixində Sazişi birtərəfli qaydada ləğv etmişdir.

## HÜQUQİ MƏSƏLƏLƏR VƏ TƏLƏBLƏR

Tərəflər arasında Saziş həm İddiaçı, həm də Cavabdeh tərəfindən imzalanmışdır.

Sazişdə Tərəflər arasında onunla bağlı yaranan mübahisələrin Arbitraj Qaydalarına uyğun olaraq həll edilməsi nəzərdə tutulmuşdur. Həmçinin sazişdəki arbitraj maddəsi geniş formada tərtib edilib və sazişdən irəli gələn və ya onunla əlaqəli olan bütün mübahisələri əhatə edir. Bu səbəblə də hazırkı arbitraj tribunalı qeyd edilən mübahisə ilə bağlı qərar verməkdə tam səlahiyyətlidir. Əlavə olaraq, HPBS üzrə münasibətlərin Azərbaycan Respublikası qanunvericiliyi ilə tənzimləndiyi qeyd edilir.

Eyni zamanda İddiaçı öhdəliklərini, əsasən, yerinə yetirmişdir. Digər çatışmazlıqlar isə fors-major halları və çətinlik səbəbindən baş vermişdir. Bu səbəbdən Cavabdeh onu hasilat və ya maliyyə hədəflərinə nail olmadığına görə məsuliyyətə cəlb edə bilməz.

Həmçinin İddiaçının hədəflərdəki çatışmazlıqları əhəmiyyətli pozuntu kimi qiymətləndirilməməlidir. Belə ki, Yatağın hasilatının azalmasının qarşısını almaq, həmçinin hasilatı artırmaq əsas məqsəddir və bu təmin edildiyi halda bu cür çatışmazlıqların mövcudluğu Sazişin kommersiya məqsədlərinə xələl gətirmir.

Ümumilikdə, Cavabdehin HPBS-ni ləğv etməsi, o cümlədən danışıqlarda vicdansız mövqe nümayiş etdirməsi, Yerli bazar nefti ilə bağlı cərimələr tətbiq etməsi, "Argus" layihəsi ilə bağlı xərclərin İddiaçıya geri qaytarılmasına etiraz etməsi kimi əməllər İddiaçının sərmayəsinin faktiki müsadirəsinə səbəb olmuşdur. Cavabdehin fərdi olaraq legitim hesab edilə biləcək tədbirləri bütövlükdə nəzərdən keçirildikdə, HPBS-nin pozulması və sərmayənin müsadirəsi ilə nəticələnmişdir.

Hazırkı bildirişdə İddiaçı aşağıdakıları tələb edir:

1. Cavabdehin Sazişin mətnində birbaşa göstərilməsə də, onun tərkib hissəsi kimi qəbul edilən və HPBS-nin icrası zamanı tətbiq olunmalı olan müddəalara zidd davranmaqla HPBS-ni əsassız olaraq pozduğu bəyan edilsin.
2. Cavabdeh fors-major halı nəzərə almayaraq İddiaçının öhdəliklərini tam yerinə yetirməməsi ilə bağlı məsuliyyətini istisna etmədiyi üçün Cavabdehin HPBS-ni pozduğu tanınsın.
3. HPBS çərçivəsində İddiaçı tərəfindən əhəmiyyətli pozuntu törədilmədiyi üçün Cavabdeh tərəfindən Sazişin birtərəfli ləğvi hüquqazidd hesab edilsin.
4. HPBS-nin birtərəfli ləğvinin və Cavabdehin İddiaçıya qarşı digər vicdansız davranışlarının İddiaçının sərmayəsinin dolayı müsadirəsinə *(indirect expropriation)* bərabər olduğu bəyan edilsin. Bununla da İddiaçının uğradığı zərər, əldən çıxmış fayda və Savalan yatağına qoyulmuş investisiyaya görə kompensasiya və ya təzminat almaq hüququnun yarandığı tanınsın.
5. Arbitraj və hüquqşünas xərcləri Cavabdeh tərəfindən ödənilsin.

## PROSESSUAL MƏSƏLƏLƏR

İddiaçı Beynəlxalq Ticarət Palatasının (ICC) Arbitraj Qaydalarına uyğun olaraq üç arbitrdən birinin – Villiam Fosterin namizədliyini irəli sürür.

**Omex BVI-nin vəkili:** **Conatan Klark**

***<u>Qoşma İ-001 – Saziş</u>***

# SAZİŞ

Bu Saziş bir tərəfdən səlahiyyətli nümayəndə Conatan Bleyk şəxsində Omex Energy BVI (bundan sonra – Podratçı), digər tərəfdən Arkadiya Respublikasının Dövlət Enerji Şirkətinin prezidenti Teodor Kallistos şəxsində Arkadiya Respublikasının Dövlət Enerji Şirkəti (bundan sonra – ARKEN) tərəfindən 1 avqust 2015-ci ildə bağlanmışdır.

## 1. SAZİŞİN PREDMETİ

1.1. Bu Sazişlə ARKEN Podratçıya bu Sazişin şərtlərini əsas götürməklə və onlara uyğun olaraq Sazişdə nəzərdə tutulmuş müddət ərzində Savalan yatağı ilə bağlı neft əməliyyatları aparmaq üçün yeganə və müstəsna hüquq verir. Burada xüsusi göstərilən hüquqlar istisna olmaqla, bu Saziş yerin təki, habelə hər hansı digər təbii ehtiyatlar ilə bağlı neft əməliyyatlarından başqa hər hansı digər fəaliyyət növü ilə məşğul olmaq üçün hüquqlar nəzərdə tutmur.

1.2. Podratçı Savalan yatağının modernləşdirilməsi, istehsalın həcminin artırılması və müvafiq istehsal hədəflərinə çatmaqla bağlı öhdəlik götürür.

1.3. ARKEN Podratçının əməliyyatlarına audit aparmaq, iş proqramlarını təsdiq etmək, onlara düzəlişlər etmək və ekoloji qaydaları tətbiq etmək hüquqlarına malikdir.

[...]

## 11. MƏSRƏFLƏRİN ÖDƏNİLMƏSİ

11.1. Podratçının neft əməliyyatlarına çəkilən məsrəflərin əvəzini almaq hüququ var.

11.2 Neft əməliyyatlarına çəkilən məsrəflər dedikdə bu Sazişə uyğun olaraq neft əməliyyatlarının məqsədləri üçün Podratçının faktiki çəkdiyi bütün məsrəflər nəzərdə tutulur.

11.3. Neft əməliyyatları dedikdə karbohidrogenlərin kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi, çıxarılması, hasilatı, sabitləşdirilməsi, hazırlanması, oyadılması, vurulması, toplanması, saxlanması, yüklənməsi, göndərilməsi, çatdırılma məntəqəsinə qədər nəql edilməsi və Kontrakt Sahəsində hasil edilmiş karbohidrogenlərin marketinqi və Kontrakt Sahəsində və Kontrakt Sahəsi ilə bağlı bütün ləğvetmə işləri üzrə əməliyyatlar nəzərdə tutulur.

[...]

## 14. YERLİ BAZAR NEFTİ

14.1. Podratçı Tərəflər arasında razılaşdırılmış aylıq cədvələ əsasən hasil olunan neftin 20%-ni Yerli bazar nefti kimi ayırmağa və beynəlxalq Brent markalı neftin həmin ay üçün müəyyən edilmiş orta bazar qiymətindən 35% daha aşağı qiymətə ARKEN-ə satmağa borcludur.

14.2. Podratçı Təqvim rübü ərzində Tərəflərin razılaşdırdığı cədvəl üzrə Sazişin 14.1 bəndində nəzərdə tutulan öhdəlikləri yerinə yetirmədikdə ("əskik tədarük") Podratçı əskik tədarükün əvəzini həmin Təqvim rübündən sonrakı Təqvim rübündə (i) analoji keyfiyyətli və ya ARKEN-lə razılaşdırılan digər keyfiyyətli xam neftlə, yaxud (ii) Tərəflər arasında razılaşdırılmış sair qaydada tam həcmdə ödəməlidir. Podratçı əskik tədarükün əvəzini bu

bənddə göstərilən qaydada ödəyə bilmədikdə bu cür ödəməmə Sazişin əhəmiyyətli pozuntusu hesab olunur.

14.3. İki (2) ardıcıl Təqvim rübü ərzində əskik tədarük olduqda və Podratçı həmin əskik tədarükün əvəzini 14.2 bəndinə müvafiq olaraq ödəmədikdə ARKEN 35-ci maddədə nəzərdə tutulmuş qaydada və şərtlərlə Kontrakt Sahəsinə münasibətdə bu Sazişə xitam vermək hüququna malikdir.

14.4. 14-cü Maddənin digər müddəalarına baxmayaraq ARKEN-in öz mülahizəsinə əsasən Yerli bazar neftinin alışını müvəqqəti dayandırmaq hüququ vardır. Bu zaman ARKEN Yerli bazar neftinin alınmasını dayandırmaq istədiyi Təqvim rübünün başlanmasından ən azı otuz (30) gün əvvəl Podratçıya yazılı məlumat verməlidir. ARKEN Yerli bazar neftinin alınmasını davam etdirmək qərarına gəldiyi halda Yerli bazar neftinin alınmasını davam etdirmək istədiyini Təqvim rübünün başlanmasından ən azı otuz (30) gün əvvəl Podratçıya yazılı məlumat verməlidir.

[...]

## 17. VURULAN ZƏRƏR ÜÇÜN MƏSULİYYƏT

17.1. Podratçı ARKEN və ya müvafiq Hökumət orqanı qarşısında yalnız onların və ya onların neft əməliyyatlarının yerinə yetirilməsi çərçivəsində fəaliyyət göstərən müvafiq işçilərinin, müvafiq Subpodratçılarının və Subpodratçıların işçilərinin qərəzli səhlənkarlığı nəticəsində vurulmuş zərər və ya itkilər üçün məsuliyyət daşıyır.

17.2 ARKEN Podratçını ARKEN-in məruz qaldığı bütün digər zərər və itkilər üçün məsuliyyətdən azad edir və Podratçının məsuliyyətini ödəyir, Podratçını ARKEN-ə və/və yaxud Hökumət orqanlarına vurulan bütün başqa zərər və itkilərə görə ona və/və yaxud Podratçıya qarşı irəli sürülən və ya qaldırılan hər hansı iradlar, tələblər, iddialar və ya məhkəmə araşdırmaları ilə bağlı məsuliyyətdən azad edir. Podratçının üçüncü tərəflər (Hökumət orqanları istisna olmaqla) qarşısında məsuliyyəti Azərbaycan Respublikasının tətbiq edilə bilən qanunları ilə nizamlanır, bu şərtlə ki ARKEN-in Kontrakt Sahəsinin hüdudlarından kənarda yerləşən qurğularına və obyektlərinə üçüncü tərəfə məxsus qurğular və obyektlər kimi baxılsın.

17.3. Podratçının Sazişin 1 və 26-cı maddədə nəzərdə tutulmuş hüquqlarına xələl gətirmədən, Sazişdən doğan və ya bu Sazişlə, yaxud ona aid hər hansı fəaliyyətlə bağlı olan dolayı itkilər baxımından Tərəflər hər hansı laqeydliyə rəğmən heç bir halda, o cümlədən müqavilə, mülki hüquq pozuntusu ilə əlaqədar və ya hər hansı başqa tərzdə məsuliyyət daşımırlar.

17.4. Bu maddənin məqsədləri baxımından “dolayı itkilər” ifadəsi hər hansı dolayı itkilər və ya ziyan, o cümlədən bunlarla məhdudlaşdırılmadan, karbohidrogenlər çıxarmaq qabiliyyətinin olmaması, karbohidrogenlər hasilatının itirilməsi və ya ləngidilməsi, yaxud mənfəətin itirilməsi deməkdir.

[...]

## 21. FORS-MAJOR

21.1. Fors-major halı nəticəsində hər hansı Tərəf bu Sazişdə nəzərdə tutulan öhdəliklərini tamamilə və ya qismən yerinə yetirə bilməzsə, öhdəliklərə fors-major halı təsir etdiyi təqdirdə və dərəcədə, belə təsirə məruz qalan Tərəfin öhdəliklərini yerinə yetirmək qabiliyyəti olmadığı müddətə və fors-major halı baş verəndən qabaq mövcud olan vəziyyəti bərpa etmək üçün lazım

ola bilən ağlabatan əlavə müddətə, amma ondan uzun olmamaq şərti ilə öz öhdəliklərini yerinə yetirilməsini dayandırmaq üçün bildiriş vermək hüququ var. Fors-major halının təsirinə məruz qalan Tərəf fors-major halını mümkün olan tez bir zamanda və qənaətli şəkildə aradan qaldırmaq və ya öhdəsindən gəlmək üçün bütün lazımi səyləri göstərir.

21.2. Tərəflərin hər hansı biri fors-major ilə üzləşdikdə digər tərəfə dərhal rəsmi şəkildə fors-major halının nədən ibarət olması, ehtimal olunan davam etmə dövrü və proqnozlaşdırılan təsiri haqqında təfsilatlı məlumat təqdim edir.

21.3. Fors-major halı o deməkdir ki, hər hansı bir hadisə neft əməliyyatlarının qarşısını alır, onları əhəmiyyətli dərəcədə ləngidir və ya onlara əhəmiyyətli maneçilik törədir, yaxud Podratçının bu Sazişdə təsbit olunmuş hüquqlarına ciddi xələl gətirir və ya onlara təhlükə yaradır və istənilən halda bütün ağlabatan tədbirlər görülsə də, bu hadisə və ya onun nəticələrini nəzarət etmək təsirə məruz qalan Tərəfin imkanları xaricindədir.

21.4. Əgər fors-major halları neft əməliyyatlarını ləngidirsə, onları məhdudlaşdırırsa və ya aparılmasına maneçilik törədirsə, bu Saziş üzrə bütün hüquqların və öhdəliklərin müddəti fors-major hallarının səbəb olduğu ləngimə müddətinə bərabər müddət qədər, əlavə olaraq fors-major halları aradan qaldırıldıqdan və ya dayandırıldıqdan sonra əməliyyatların yenidən başlanması üçün zəruri olan müddət qədər uzadılır.

21.5. Tərəflər zərəri minimal səviyyəyə salmaq üçün zəruri tədbirləri görməlidirlər.

## 22. İQTİSADİ SABİTLƏŞMƏ

22.1. Bu Saziş üzrə Podratçıya veriləsi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilmir, modifikasiya edilmir və ya məhdudlaşdırılmır. Əgər Hökumət və ya Arkadiya Respublikasının hər hansı digər dövlət orqanı bu Sazişin müddəalarına zidd olan, yaxud bu Saziş üzrə Podratçının hüquqlarına və ya mənafelərinə mənfi, yaxud müsbət təsir göstərən hər hansı mövcud və ya gələcək qanunun, müqavilənin, hökumətlərarası sazişin, fərmanın, yaxud inzibati sərəncamın, o cümlədən vergi qanunvericiliyində, qaydalarda, inzibati praktikada hər hansı dəyişikliklərin, yaxud Kontrakt Sahəsi barəsində yurisdiksiya dəyişikliklərinin tətbiq olunmasını tələb edirsə, Tərəflərin iqtisadi mənafelərinin tarazlığını bərpa etmək məqsədilə bu Sazişin müddəalarında təshihlər aparılır və əgər bu cür təshihlərdən sonra Podratçının hüquqlarına və ya mənafelərinə mənfi təsir (o cümlədən Sazişin müddəaları təshih edilməzdən əvvəlki müddətdə olan hər hansı mənfi təsir daxil olmaqla) qalırsa, ARKEN Podratçını (və qanuni şəkildə onun hüquqlarını əldə etmiş şəxsləri) bununla bağlı hər cür itkilər, iqtisadi vəziyyətin pisləşməsi, zərər və ya ziyana görə məsuliyyətdən azad edir. ARKEN belə müqavilə, hökumətlərarası saziş, qanun, fərman, yaxud inzibati sərəncam ilə bu Saziş arasında hər hansı münaqişənin və ya uyğunsuzluğun yuxarıda göstərilmiş prinsiplərə müvafiq surətdə tez bir zamanda həll olunması məqsədilə Hökumətin müvafiq tədbirlər görməsini təmin etmək üçün öz səlahiyyətlərinin tam həcmi çərçivəsində hər cür ağlabatan qanuni səylər göstərir.

[...]

## 26. MÜSADİRƏ

26.1. Hər hansı Hökumət orqanının və ya dövlət şirkətinin hər hansı fəaliyyəti və ya fəaliyyətsizliyi nəticəsində Podratçının hər hansı hüquqlarının, mənafelərinin, yaxud əmlakının müsadirəsi, milliləşdirilməsi və ya başqa cür alındığı hallarında arbitrlər nağd pulun

diskontlaşdırılmış axını metodunu tətbiq edərək və əlverişli konyunktura şəraitində əqddə maraqlı olan alıcının və satıcının mövcudluğunu ehtimal edərək, habelə Podratçının öz hüquqlarından, mənafelərindən, paylarından (o cümlədən mənimsənilməmiş ehtiyatlarda iştirak payından) və ya əmlakından məhrum olması ilə nəticələnən əlverişsiz vəziyyəti nəzərə almayaraq işləyən müəssisə timsalında müəyyən edilmiş zərərin əvəzinin tam bazar dəyəri ilə ödənilməsi (o cümlədən dollarla dərhal, tam və təsirli kompensasiyası) prinsiplərini tətbiq edirlər. Podratçının sadalanan hüquqlarının, mənafelərinin, paylarının (o cümlədən mənimsənilməmiş ehtiyatlarda iştirak payının) və ya əmlakının tam bazar dəyərini müəyyənləşdirmək üçün arbitrlər yüksək beynəlxalq nüfuza malik investisiya bankı seçirlər.

## 27. İDXAL VƏ İXRAC

27.1. Podratçı heç bir vergi tutulmadan və heç bir məhdudiyyət qoyulmadan aşağıdakıları öz adlarından Arkadiya Respublikasına idxal etmək və yenidən ixrac hüququna malikdir: hər cür avadanlıq, materiallar, dəzgahlar və alətlər, nəqliyyat vasitələri, ehtiyat hissələri, Podratçının əsaslandırılmış rəyinə görə neft əməliyyatlarının lazımınca aparılması və yerinə yetirilməsi üçün zəruri olan mallar və başqa predmetlər (ərzaq məhsulları, spirtli içkilər və tütün məmulatı istisna olmaqla) bu şərtlə ki, Arkadiyanın tədarükçüləri malların qiyməti, keyfiyyəti və mövcudluğu baxımından bütün mühüm cəhətlərdə xarici tədarükçülərlə rəqabət aparmaq qabiliyyətinə malik olduqları hallarda Podratçı bu predmetləri satın alarkən Azərbaycan tədarükçülərini üstün tutacaqdır.

27.2. Yuxarıda deyilənlərə baxmayaraq Podratçı Neft əməliyyatları üçün alınmış və məsrəfləri Neft əməliyyatları Hesabına daxil edilmiş hər hansı maddi sərvət vahidlərini Arkadiya Respublikasından çıxarmaq hüququna malik deyildir (təmir və ya texniki xidmətlə bağlı zəruri hallar istisna edilməklə; bu şərtlə ki, həmin təmir və ya texniki xidmət başa çatdırıldıqdan sonra ağlabatan şəkildə əsaslandırılmış müddət keçdikdə bu maddi sərvət vahidləri yenidən Arkadiya Respublikasına qaytarılsın).

27.3. Podratçı tərəf, onun müştəriləri və onların nəqletmə agentlikləri bu Sazişin müddəalarına uyğun olaraq belə Podratçı tərəfə çatası karbohidrogenləri və onların emalı məhsullarını heç bir vergi ödəmədən (mənfəət vergisindən başqa) istənilən vaxt sərbəst şəkildə ixrac etmək hüququna malikdirlər.

27.4. Podratçı Arkadiya Respublikasında qüvvədə olan xarici ticarət qaydalarında bu Sazişin 27-ci maddəsində göstərilən malların idxalına və ixracına, habelə istehsalçı ölkələrə dair qoyulmuş məhdudiyyətlərdən və bu Sazişin şərtlərinə görə Podratçıya çatası karbohidrogenlərin ixracına aid qadağalar və müxtəlif məhdudiyyətlərlə bağlı tələblərə əməl etməkdən də azad olunurlar.

27.5. Podratçının müvafiq xahişi olduqda ARKEN yuxarıda adı çəkilən azadolunmaları və güzəştləri təmin etmək və hər hansı Podratçı tərəfin, əməliyyat şirkətinin, onların ortaq şirkətlərinin, agentlərinin, yaxud subpodratçılarının və onların bütün əməkdaşlarının və ailə üzvlərinin hər hansı avadanlığının və ya materiallarının gömrük müayinəsini sadələşdirmək üçün malik olduğu bütün səlahiyyətlər daxilində bütün lazımi qanuni tədbirləri görəcəkdir.

[...]

## 35. SAZİŞİN QÜVVƏSİNƏ XİTAM VERİLMƏSİ

35.1. Hər hansı Tərəf bu Saziş üzrə öz öhdəliklərinin əhəmiyyətli pozuntusuna yol verərsə və digər Tərəfin həmin əhəmiyyətli pozuntunun xarakteri və mahiyyəti, habelə həmin əhəmiyyətli pozuntuya görə bu Sazişin qüvvəsinə xitam vermək niyyəti haqqında bildirişindən sonra doxsan (90) gün müddətində bu pozuntu aradan qaldırılmırsa və ya düzəldilmirsə, bunlara

(i) Podratçı yol verirsə, ARKEN tərəfindən, yaxud

(ii) ARKEN yol verirsə, Podratçı tərəfindən

bu Sazişin qüvvəsinə istənilən vaxt xitam verilə bilər, bu şərtlə ki

(A) Həmin əhəmiyyətli pozuntu aradan qaldırıla və ya düzəldilə bilərsə, lakin lazımi səylər göstərildiyinə baxmayaraq, onların aradan qaldırılmasına və ya düzəldilməsinə doxsan (90) gün kifayət etmirsə, əhəmiyyətli pozuntuda ittiham edilən tərəf həmin pozuntunu aradan qaldırmaq və ya düzəltmək üçün göstərilən doxsan (90) gün ərzində ağlabatan zəruri tədbirlər görməyə başlayıbsa və əhəmiyyətli pozuntu aradan qaldırılanadək və ya düzəldilənədək tədbirləri görməkdə israrla davam edirsə, Sazişə xitam vermək hüququ tətbiq edilə bilməz; həmçinin razılaşdırılır ki, bu halda Tərəflər əhəmiyyətli pozuntunun aradan qaldırılması və ya düzəldilməsi üçün zəruri olan hərəkətlər barəsində qarşılıqlı razılığa gəlməyə çalışacaqlar və

(B) Hər hansı Tərəf göstərilən doxsan (90) gün ərzində əhəmiyyətli pozuntu məsələsini mübahisələrin həll edilməsinin bu Sazişdə nəzərdə tutulmuş qaydasına əsasən arbitraja çıxardıqda bu Sazişin qüvvəsinə yalnız o halda və ya yalnız ondan sonra xitam verilə bilər ki, (i) arbitraj belə rəyə gəlsin ki, həqiqətən əhəmiyyətli pozuntuya yol verilmişdir və (ii) pozuntuya yol vermiş sayılan Tərəf arbitraj kollegiyasının müəyyən etdiyi bu pozuntunu aradan qaldırmaq və ya düzəltmək üçün müvafiq imkanı (lakin bütün hallarda doxsan (90) gündən az olmamaqla) olmasına baxmayaraq, onu aradan qaldırmamış və ya düzəltməmişdir (bu Tərəfin əhəmiyyətli pozuntunu aradan qaldırmaq və ya düzəltmək üçün ağlabatan zəruri tədbirlər görməsi və görməkdə israrla davam etməsi istisna olmaqla). Arbitrajın qərarı qəti və Tərəflər üçün məcburidir, dərhal icra edilməlidir.

(C) Bu Saziş çərçivəsində "əhəmiyyətli pozuntu" termini Podratçının, ARKEN-in, yaxud Hökumətin (vəziyyətdən asılı olaraq) öz müqavilə öhdəliklərini yerinə yetirməkdən tamamilə imtina etməsi və ya Sazişin kommersiya məqsədinin baş tutmamasına səbəb olmuş davranış nəticəsində baş verən və aradan qaldırılmadığı təqdirdə Sazişin bütövlükdə öz mahiyyətini itirməsinə bərabər olan əhəmiyyətli pozuntu halı deməkdir.

[...]

# ƏLAVƏ 2.

## TƏTBİQ EDİLƏN HÜQUQ VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

2.1. Bu Saziş Azərbaycan Respublikasının və İngiltərənin qanunları üçün ümumi olan hüquq prinsiplərinə müvafiq surətdə, hər hansı məsələyə dair ümumi prinsiplər olmadığı halda isə Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

2.2. Tərəflər arasında meydana çıxan və tərəflərin xoşluqla həll edə bilmədikləri bütün mübahisələr, o cümlədən bu Sazişin etibarlılığı, təfsiri, iddia qüvvəsinə malik olması və ya pozulması ilə bağlı bütün mübahisələr (ICC) Arbitraj Qaydalarına uyğun olaraq Bakı şəhərində keçirilən arbitrajla həll olunur.

| **SİFARİŞÇİ** | **PODRATÇI** |
|---|---|
| Arkadiya Respublikasının<br>Dövlət Enerji Şirkəti<br>Arkadiya Respublikası, Nova Arkada, 125 Müstəqillik Prospekti | Omex Energy BVI Şirkəti<br>Böyük Britaniyanın Vircin adaları, Road Town, Wickhams Cay 1 |
| ________ imza/ möhür | ________ imza/ möhür |

***Qoşma İ-002 – Press-reliz***

# Savalan yatağı yeni mərhələyə qədəm qoyur: OMEX və ARKEN strateji saziş imzaladı!

**3 avqust 2015**

Omex Energy BVI (Omex) və Arkadiya Respublikasının Dövlət Enerji Şirkəti (ARKEN) bir neçə gün öncə Savalan yatağının modernləşdirilməsi, istehsalın həcminin artırılması üçün "İyirmi beş illik bərpa və hasilatın pay bölgüsü (HPBS) haqqında" Saziş imzaladılar.

HPBS ARKEN-in prezidenti Teodor Kallistos və Omex qrupunun baş icraçı direktoru Conatan Bleyk tərəfindən imzalandı.

1980-ci ildə kəşf edilən Savalan yatağı 1995-ci ildə ən yüksək istehsal həddinə çatmış və gündə təxminən 150.000 barel yüksək keyfiyyətli xam neft hasil edilmişdir. 2015-ci ilə qədər isə təbii tükənmə, köhnəlmiş hasilat texnologiyaları səbəbindən istehsal gündə 30.000 barelə qədər azalmışdır.

Arkadiyanın enerji təhlükəsizliyi və büdcəsinə verdiyi strateji töhfə nəzərə alınaraq ARKEN Savalan yatağının reabilitasiyası üçün qabaqcıl texnologiyalara malik Omex-lə əməkdaşlığa üstünlük vermişdir.

HPBS-yə əsasən, Omex-in günə 30.000 barel istehsal səviyyəsindən yuxarı artan hissə üzrə pay sahibi olduğu müəyyən edilmişdir. Həmçinin sazişdə Arkadiyanın Milli Enerji İnkişaf Planında göstərilən strateji məqsədlərinə uyğun olaraq illik qazma tələbləri (quyuların sayı və növləri), minimum xərc həddi (inflyasiya və qlobal neft qiymətləri) və mərhələli istehsal hədəfləri (müqavilə müddəti ərzində artan) məsələləri də öz əksini tapmışdır.

Əlavə olaraq, HPBS-də istehsalın 20%-nin Yerli bazar nefti kimi ayrılması, Arkadiya hökuməti tərəfindən müəyyən edilmiş qiymətə (beynəlxalq bazar qiymətlərindən xeyli aşağı) sabit daxili enerji təchizatını təmin etməsi, yerli istehlakçıları beynəlxalq qiymət dəyişkənliyindən qorunması və yerli sənayeni dəstəklənməsi kimi məsələlər nəzərdə tutulurdu.

Bağlanılan sazişlə əlaqədar olaraq, ARKEN-in prezidenti Teodor Kallistos öz nitqində qeyd etmişdir: "**Bu gün Arkadiyanın neft sənayesi üçün mühüm bir gündür. İmzalanan bu saziş təkcə iqtisadi uğur deyil, həm də ölkəmizin neft strategiyasının ardıcıl və məqsədyönlü inkişafının göstəricisidir. Bu layihə ölkəmizin enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, beynəlxalq tərəfdaşlarımızla əməkdaşlığımızı daha da gücləndirəcək**".

Omex qrupunun baş icraçı direktoru Conatan Bleyk isə öz növbəsində: "**Ümid edirik ki, Savalan yatağının bərpası üçün "Argus" sisteminin tətbiqi hasilatın səmərəliliyini artırmaqla yanaşı, innovativ yanaşmalar və qabaqcıl texnologiyalar vasitəsilə yatağın potensialını tam üzə çıxaracaq və onun uzunmüddətli istismarını təmin edəcəyik**" fikirlərini səsləndirmişdir.

**OMEX**

Omex Energy BVI (Omex) 2010-cu ildə Böyük Britaniyanın Vircin adalarında təsis edilmiş orta miqyaslı enerji şirkəti olaraq neft və qaz yataqlarının istismar müddətini uzatmaq üçün Süni İntellekt (Sİ) əsaslı həllər üzrə ixtisaslaşmışdır. Omex bir neçə inkişaf etməkdə olan ölkədə köhnə yataqların reabilitasiyası sahəsində uğurlu bir tarixçəyə sahibdir.

**Xəbərdarlıq**

Bu press-reliz gələcəyə yönəlmiş proqnozları, strateji planları və gözləntiləri əks etdirir. Bununla belə, nəzərə almaq lazımdır ki, bu bəyanatlar yalnız indiki qiymətləndirmələrə və mövcud bazar şərtlərinə əsaslanır. Reallıqda isə bir sıra iqtisadi, geosiyasi və texniki risklər, eləcə də gözlənilməz hadisələr nəticəsində bu planlar və nəticələr dəyişə bilər. Buna görə də bu press-relizdəki bəyanatlara yalnız indiki kontekstdə baxılmalı və onlar qətiyyətli investisiya və ya biznes qərarları üçün yeganə mənbə kimi qəbul edilməməlidir.

Əlavə məlumat üçün əlaqə saxlamağınız tövsiyə olunur:

ARKEN-in Mətbuat ofisi,
tel.: +448 023 5648912
OMEX Arkadiya Mətbuat ofisi,
tel.: +448 023 8922443
OMEX Vircin Adaları Mətbuat ofisi,
tel.: +1 284 000 0096778

***Qoşma İ-003 – Hesabat***

# OMEX Energy BVI

SAVALAN YATAĞINDA GÖSTƏRİLMİŞ
FƏALİYYƏT BARƏDƏ

# HESABAT

Omex Energy BVI (Omex) və Arkadiya Respublikasının Dövlət Enerji Şirkəti (ARKEN) arasında 2015-ci il tarixində bağlanmış hasilatın pay bölgüsü Sazişinə əsasən, Omex 2016-cı ildən başlayaraq ARKEN-ə aid Savalan yatağının bərpası, modernləşdirilməsi, istehsal həcminin artırılması və əhəmiyyətli istehsal hədəflərinə çatması ilə bağlı müvafiq işlər görmüşdür.

Təsdiq edilmiş illik iş proqramı və büdcəyə əsasən Omex ilk il ərzində minimum 50 milyon ABŞ dolları investisiya qoymaq, ən azı beş (5) yeni hasilat quyusu qazmaq və hasilatı 25% artırmaq öhdəliyini götürmüşdür. Növbəti beş il ərzində isə hasilat artımını 40-45%-ə çatdırmaq və təxminən 200 milyon ABŞ dolları məbləğində investisiya qoymaq planlaşdırılmışdır.

2016-cı ildə Omex tərəfindən layihənin icrasına başlanılmış və Arkadiyadakı yerli banklar konsorsiumundan 100 milyon ABŞ dollarlıq uzunmüddətli maliyyələşdirmə əldə edilmişdir. Bu məbləğ quyulara suvurma sistemlərinin quraşdırılması, Omex-in xüsusi "Argus" Sİ əsaslı yataq monitorinq texnologiyalarının tətbiqi və geniş miqyaslı quyu bərpa proqramının icrası üçün nəzərdə tutulmuşdur.

“Argus” sisteminin köhnəlmiş yataq infrastrukturuna inteqrasiyası zamanı qarşılaşılan gözlənilməz texniki çətinliklər nəticəsində əlavə 2 milyon dollar xərc yaranmış və bununla da “Argus” üçün xərclər 20 milyon dollara çatmışdır. Bu çətinliklər, əsasən, sistemin mövcud qurğularla uyğunlaşdırılması, lazımi avadanlıqların dəyişdirilməsi və əməliyyat proseslərinin optimallaşdırılması üçün tələb olunan əlavə texniki müdaxilələrdən qaynaqlanmışdır.

Layihənin icrası zamanı bəzi yan infrastruktur təkmilləşdirmələri aparılmış, yeni texniki heyət təlimləndirilmiş və sahədə effektivliyin artırılması üçün avtomatizasiya sistemi yenilənmişdir. Son olaraq, qazma prosesində istifadə edilən materialların keyfiyyəti artırılmaqla yanaşı, ekoloji nəzarət prosedurları da möhkəmləndirilmişdir.

Omex ikinci ilin sonunda hasilatı ümumilikdə 15% artırmışdır. Qazma işləri əsnasında qarşıya çıxan geoloji çətinliklər və qlobal təchizat zənciri problemləri HPBS-də nəzərdə tutulan hədəfə tam nail olunmasının qarşısını almışdır. Bununla belə, növbəti dörd il ərzində Omex kumulyativ 40% hasilat artımına nail olmuşdur.

***Qoşma İ-004 – E-poçt yazışmaları***

**From:** Daniel Bennett Bennett1976@gmail.com
**Sent:** Wednesday, April 08, 2020 07:04 PM
**To:** Kevin Parker Kparker1989@gmail.com

**Subject:** Yerli bazar nefti tədarükü problemi

Hörmətli cənab Kevin,

Omex olaraq HPBS-nin 14-cü maddəsinə əsasən, nəzərdə tutulmuş Yerli bazar nefti tədarükü ilə bağlı müəyyən məsələləri nəzərinizə çatdırmaq istəyirik. Bildiyiniz kimi, Omex saziş üzrə öhdəliklərinə tam şəkildə əməl etməyə çalışır, lakin dünya bazar qiymətlərindən aşağı müəyyən edilmiş 20%-lik Yerli bazar nefti kvotası şirkətimizin gəlir marjalarını ciddi şəkildə azaldır və Savalan yatağının gələcək inkişafı üçün yenidən investisiya yatırmaq imkanlarımızı məhdudlaşdırır. Xüsusilə beynəlxalq bazarda neft qiymətlərinin əhəmiyyətli dərəcədə aşağı düşməsi problemi daha da böyütməkdədir.

Bundan əlavə, Yerli bazar nefti üçün müəyyən edilmiş qiymət Savalan yatağında hasil edilən yüngül xam neftin keyfiyyət fərqlərini adekvat şəkildə nəzərə almır. Şirkətimizin strateji inkişaf planlarını nəzərə alaraq bu məsələlərin daha dəqiq qiymətləndirilməsini və uyğun bir həll yolu tapmaq üçün müzakirələrin aparılmasını təklif edirik.

Hörmətlə,
Daniel Bennett
Maliyyə direktoru müavini, Omex Energy BVI

---

**From:** Kevin Parker Kparker1989@gmail.com
**Sent:** Thursday, April 9, 2020 06:33 PM
**To:** Daniel Bennett Bennett1976@gmail.com

**Subject:** Re: Yerli bazar nefti tədarükü problemi

Hörmətli cənab Daniel,

Sizin son məktubunuzu aldıq və ARKEN-in mövqeyinin dəyişmədiyini bildirmək istəyirik. HPBS-nin 14-cü maddəsində nəzərdə tutulmuş Yerli bazar nefti tədarükü sazişin əsas şərtlərindən biridir və Arkadiyanın milli enerji təhlükəsizliyi, həmçinin qiymət sabitliyi

siyasətinin ayrılmaz hissəsidir. Bu tələbin dəyişdirilməsi və ya qiymətləndirmə mexanizminə yenidən baxılması mümkün deyil.

Bildiririk ki, Omex təcrübəli beynəlxalq neft şirkəti kimi layihənin maliyyə proqnozlarını və risklərini qiymətləndirərkən bu amilləri nəzərə almalı idi. Saziş imzalanmazdan əvvəl bu tələblər açıq şəkildə göstərilmiş və Omex bu şərtləri qəbul etmişdir. Buna görə də kvota ilə bağlı hər hansı güzəştin tətbiq olunması mümkün deyil.

Hörmətlə,
Kevin Parker
Maliyyə və mühasibatlıq departamenti rəhbər müavini

***Qoşma İ-005 - Protokol***

**OMEX ENERGY BVI (OMEX) və ARKADİYA RESPUBLİKASININ DÖVLƏT ENERJİ ŞİRKƏTİ (ARKEN) ARASINDA KEÇİRİLMİŞ İCLASA DAİR YEKUN**

# PROTOKOL

Heliopolis 18/04/2020

**Görüşə sədrlik edirdi**:

Leonidas Karpatios – Arkadiya Dövlət Enerji Şirkətinin hüquqi məsələlər üzrə direktoru

**İştirak edirdilər:**

Arkadiya Dövlət Enerji Şirkətinin prezidenti: Teodor Kallistos

Omex qrupunun baş icraçı direktoru: Conatan Bleyk

Arkadiya Dövlət Enerji Şirkətinin vəkili: Elena Mixayılova

Omex BVI-nin vəkili: Conatan Klark

**Gündəlik:**

1. HPBS-yə yeni müddəaların daxil edilməsi ilə bağlı fikir ayrılıqları
2. Tərəflər arasında ilkin razılaşmaların hüquqi qüvvəsi

**Eşidildi:**

Gündəlikdə öz əksini tapan məsələlərlə bağlı mövqelərini ifadə etmək üçün Omex qrupunun baş içraçı direktoru Conatan Bleykə söz verildi.

Bleyk öz nitqinə Omexin dəyişən neft qiymətlərinin, artan əməliyyat xərclərinin, tənzimləyici yüklərin və Yerli bazar nefti tələblərinin birləşmiş təsirləri səbəbindən artan maliyyə gərginliyi ilə üzləşdiyini qeyd etməklə başladı. Bununla əlaqədar olaraq, o, bir sıra yeni müddəaların HPBS-də əksini tapmasa da, onun tərkib hissəsi kimi təfsir edilməsinin zəruriliyi ilə bağlı fikirlərini səsləndirdi. Bu arqumenti daha aydın izah etmək üçün vəkil Klark beynəlxalq praktikada *"implied terms"* kimi tanınan anlayışa istinad edərək, bir sıra yeni müddəaların HPBS-də əksini tapmasa da, onun tərkib hissəsi kimi təfsir edilməsinin zəruruliyini izah etdi. O xüsusilə layihənin uzunmüddətli xarakterini, həmçinin neft-qaz sənayesindəki qeyri-müəyyənlikləri,bazar şərtlərindəki gözlənilməz, əhəmiyyətli dəyişiklikləri nəzərə alaraq əməliyyat planlarına və maliyyə öhdəliklərinə avtomatik ağlabatan düzəlişlərin edilməsini ehtiva edən şərtin olmasının zəruriliyini İngilis hüququna istinad etməklə əsaslandırdı. C. Bleyk beynəlxalq neft sənayesindəki təcrübəni və vicdanlılıq prinsipini əsas gətirərək bu cür müddəanın daxil edilməsi ilə bağlı mövqeyini gücləndirdi. O vurğuladı ki, sazişdə təsbit olunan bu hüquqi şərt Omex-in layihədə müəyyən metriklərlə bağlı hədəfləri tam ödəməsinə xidmət etməsə də, HPBS üzrə əsas məqsədin, yəni Savalan yatağında istehsalın maksimum dərəcədə artırılması həyata keçirilməsinə şərait yaradır. Buna görə də iş proqramı və investisiya öhdəliklərinə avtomatik düzəlişlər edilə bilər.

ARKEN-in prezidenti Teodor Kallistos Omex-in HPBS-yə yeni bir müddəanın daxil edilməsi fikrinə qəti şəkildə qarşı çıxaraq bəyan etdi ki, HPBS tərəflər arasında riskləri bölüşdürən hərtərəfli bir müqavilədir. Bundan sonra vəkil Elena sözə başlayaraq bazar şərtləri dəyişdiyi halda müqavilə şərtlərinə dəyişikliklərin tətbiqi ilə bağlı tərəflərin niyyətinin olmamasını sazişin sabitləşdirmə maddəsinə istinad edərək əsaslandırdı.

Buna cavab olaraq, Omex qrupunun baş icraçı direktoru C. Bleyk növbəti məsələ ilə bağlı sözünə HPBS imzalanmamışdan əvvəl aldığı təminatları vurğulmaqla başladı. Xüsusilə o, 15 iyun 2015-ci ildə keçirilən rəsmi sazişdən əvvəlki görüşdə ARKEN nümayəndələrinin Yerli bazar neft kvotasının HPBS mətnində 20% olaraq müəyyən edilsə də, texniki çətinliklər çatışmazlıqlara səbəb olduğu təqdirdə ARKEN-in praktikada "çevik və anlayışlı" olacağını açıq şəkildə bildirdiklərini qeyd etdi. Habelə ARKEN nümayəndələrinin əsas məqsədin Savalan yatağında ümumi istehsalı maksimum dərəcədə artırmaq olduğunu və 20% kvotaya ciddi şəkildə riayət etməyin hər şəraitdə optimal istehsal səviyyələrinə nail olmaqdan üstün tutulmayacağını qeyd etdiklərini xatırlatdı. Omex qrupunun baş icraçı direktoru bu məsələ ilə bağlı görüş protokollarının mövcud olduğunu da xatırlatdı.

Bundan əlavə, Omex estoppel prinsipinə əsasən ARKEN-in HPBS-nin müəyyən maddələrinə istinad etmə hüququnun olmadığını iddia etdi. Omex ARKEN-in ilk vaxtlarda Omex-in suvurma və Sİ əsaslı bərpa strategiyasını qəbul etdiyini vurğuladı və erkən istehsal artımları ilə bağlı ARKEN-in Omex-in innovativ yanaşmasını tərifləyən ictimai bəyanatlarına istinad etdi. Omex tərəfi ARKEN-in bu ilkin dəstəyinə güvənərək əlavə investisiyalar yatırdığını və fəaliyyətini uyğun şəkildə planlaşdırdığını vurğuladı. Omex ARKEN-in sonrakı mövqeyindəki dəyişikliyinin ədalətsiz nəticələrə səbəb olduğunu və şirkətə iqtisadi cəhətdən əhəmiyyətli dərəcədə zərər vurduğunu iddia etdi.

Vəkil Elena Omex-in işlərin proqresi ilə bağlı ilkin pozitiv bəyanatlarının yalnız ilkin qiymətləndirmələrə əsaslandığını və heç bir icbari öhdəlik yaratmadığını bildirdi. ARKEN Omex-in əməliyyat planlarını, çəkilən xərcləri nəzərdən keçirmək və təsdiq etmək hüququnu daim özündə saxladığını və həyata keçirilən tənzimləyici tədbirlərin HPBS və Arkadiya qanunvericiliyinə tam uyğun olduğunu vurğuladı.

Bundan əlavə, ARKEN tərəfi Omex-in hər hansı bir bəyanata əsaslanaraq hüquqi və ya maliyyə qərarları verdiyini rədd edərək Omex-in təcrübəli beynəlxalq neft şirkəti kimi sektordakı qeyri-müəyyənlikləri və riskləri nəzərə almalı olduğunu qeyd etdi.

**Qərara alındı:**

Gündəlikdə duran məsələlərlə bağlı yekdil qərarlar qəbul edilə bilmədi.

**İmzalayan tərəflər:**

Arkadiya Dövlət Enerji Şirkətinin hüquqi məsələlər üzrə direktoru: L. Karpatios

Omex qrupunun baş icraçı direktoru: Conatan Bleyk

**Vəkil Elena Mixayılova**

Mikhailova Legal Consulting
Ünvan: 14 Respublika Prospekti, Nova Arkada, Arkadiya Respublikası
Tel: +448 55 432 1000; Faks: +448 55 432 1001
E-poçt: e.mikhailova@mikhailovalegal.com

*30.06.2024 tarixində ICC Case Connect vasitəsilə*

Beynəlxalq Ticarət Palatası, Beynəlxalq Arbitraj Məhkəməsi
Baş katib cənab Aleksandr G. Fessas
Ünvan: 33 – 43 Prezident Vilson prospekti 75116 Paris
Fransa

Hörmətli cənab Fessas,

Arkadiya Respublikasının Dövlət Enerji Şirkəti (ARKEN) adından, Omex Energy BVI tərəfindən 30.05.2024 tarixində təqdim edilmiş Arbitraj Bildirişinə cavab olaraq ICC Qaydalarının 5-ci maddəsinə uyğun şəkildə bu yazılı cavabı təqdim edirəm. Bu arbitraj icraatında ARKEN-i təmsil etməyə səlahiyyətli olduğumu təsdiq edən etibarnamənin surəti də daxil olmaqla tələb olunan sənədlər əlavə olunur.

ARKEN arbitraj sazişinin üç arbitr iştirakını nəzərdə tutduğunu nəzərə alaraq, məhkəmənin ikinci üzvü kimi Dr. Nataliya İvanovanın namizədliyini irəli sürür.

Hörmətlə,
Elena Mixayılova

**Qoşma:**

1. *Arbitraj bildirişi və qoşmaları;*
2. *Etibarnamə (təqdim edilmir);*
3. *Dr. Nataliya İvanovanın CV-si (təqdim edilmir).*

Arkadiya Respublikasının Dövlət Enerji Şirkətinə (ARKEN) tərəfindən

(Arkadiya Respublikası, Nova Arkada, 125 Müstəqillik Prospekti, ARKEN Baş ofisi)

Omex Energy BVI şirkətinə qarşı

(Böyük Britaniyanın Vircin adaları, Road Town, Wickhams Cay 1, Omex Energy BVI Baş ofisi)

30.06.2024

## ARBİTRAJ BİLDİRİŞİNƏ CAVAB

Cavabdeh İddiaçı tərəfindən təqdim edilmiş faktları ümumiləşdirir və həmin faktları təsdiq edir. Bununla belə, İddiaçının bu faktlardan çıxardığı nəticələr və İddiaçının hüquqi qiymətləndirməsi ilə bağlı öz narazılığını bildirir.

Cavabdeh bildirir ki, arbitraj məhkəməsinin hazırki mübahisəyə baxmağa səlahiyyəti yoxdur. Belə ki, mübahisə ilə bağlı bəzi məsələlər Cavabdehin publik hüquq münasibətlərindən irəli gəlir. Bununla yanaşı, o, Tərəflər arasında bağlanmış HPBS-nin tələblərinə əməl etmiş və ona əsaslı şəkildə xitam vermişdir. Eyni zamanda Cavabdehin heç bir hərəkəti İddiaçının sərmayəsinin müsadirəsi kimi təfsir edilə bilməz. Nəticədə, İddiaçı tərəfin iddiaları təmin edilməməlidir.

### FAKTLAR

Cavabdeh Arkadiya Respublikasının Dövlət Enerji Şirkətidir. Arkadiya Respublikası "Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında" BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasına üzvdür.

İddiaçı Cavabdehə Savalan yatağının bərpası üçün əməkdaşlıq təklif etmişdir. Nəticədə, Tərəflər arasında sözügedən Yataqla bağlı HPBS imzalanmışdır. HPBS Cavabdehə İddiaçının əməliyyatlarına audit aparmaq, iş proqramlarını təsdiq etmək və ekoloji qaydaları tətbiq etmək kimi geniş səlahiyyətlər vermişdir.

ARKEN əvvəlki dövrlərdə digər xarici investorlarla da oxşar müqavilələr imzalamış, lakin bəziləri hüquqi mübahisə və ya arbitraj işləri ilə nəticələnmişdir. İnvestisiya xərclərinin geri qaytarılması şərtləri, ixrac məhdudiyyətləri və müsadirə iddiaları ilə bağlı mübahisələr Arkadiyanın enerji sektoruna problemlər yaratmışdır. ARKEN əvvəlki arbitraj işlərini nəzərə alaraq, beynəlxalq hüquq şirkəti ilə məsləhətləşmiş və sazişin müddəalarının bu riskləri minimuma endirəcək şəkildə formalaşdırılmasına çalışmışdır. Bu çərçivədə Sazişə sabitləşdirmə ilə bağlı müvafiq müddəa əlavə edilmişdir. Buna baxmayaraq, sabitləşdirmə ilə bağlı maddənin əhatə dairəsi və tətbiqi barədə mübahisələr yaranmışdır.

Ümumiyyətlə, HPBS-nin müddəaları investorların maraqlarını Milli Enerji Siyasəti məqsədləri ilə uyğunlaşdırmağa çalışaraq təbii sərvətlərin dövlət mülkiyyətində saxlanılması, hasilatın pay bölgüsü mexanizmləri və Arkadiyanın strateji enerji ehtiyatlarının qorunması ilə bağlı hüquqi təminatları özündə ehtiva edir.

İddiaçı Sazişin icrasına başladıqdan sonra hasilatın artırılması istiqamətində müəyyən işlər görmüş, lakin 2017-ci ildə Tərəflər arasında fikir ayrılıqları yaranmışdır. Belə ki, İddiaçı nəzərdə tutulmuş istehsal hədəflərinə tam çata bilməmiş, həmçinin onun təkidi ilə istifadə edilən "Argus" sistemi ilə bağlı xərclər gözləniləndən daha yüksək olmuşdur. Cavabdeh isə bu sistemlə bağlı investisiya məsrəflərinin geri qaytarılmasından imtina etmişdir.

Eyni zamanda 2020-ci ildən sonrakı çatışmazlıqlar İddiaçı tərəfindən pandemiya ilə bağlı fors-major halı kimi göstərilsə də, çətinliklər İddiaçının öz idarəetməsindəki qüsurlar və həddindən artıq müsbət proqnozlarından qaynaqlanmışdır. Bununla yanaşı, pandemiya və ya iqtisadi dalğalanmalar Sazişdə qeyd edilmiş fors-major hallarına aid deyil.

Əlavə olaraq, İddiaçı hasil olunan neftin 20%-nin Arkadiyanın daxili bazarına dünya bazar qiymətindən aşağı satılması öhdəliyinin ona iqtisadi cəhətdən ağır yük yaratdığını iddia etmiş və bu şərtin dəyişdirilməsini təklif etmişdir. Cavabdeh isə Sazişdə bu öhdəliyin açıq şəkildə müəyyən edildiyini və onun dəyişdirilməsinin mümkün olmadığını bildirmişdir.

Cavabdeh İddiaçının Yerli bazar nefti, minimum investisiya öhdəlikləri və hasilat artımı ilə bağlı əskikliklərini əhəmiyyətli pozuntu kimi dəyərləndirir. Belə ki, müəyyən edilmiş detallı göstəricilərə və hədəflərə ciddi şəkildə riayət olunmalı idi. Nəzərə almaq lazımdır ki, bu mübahisə eyni zamanda Arkadiyanın qanunlarının şərhini də əhatə edir. Bu qanunlar isə dövlət tərəfindən təyin edilmiş hasilat və yerli bazar üçün nəzərdə tutulmuş neft hədəflərinin yerinə yetirilməsinin vacibliyini vurğulayır.

İddiaçının investisiya, hasilat və yerli bazara neft tədarükü üzrə öhdəliklərini yerinə yetirməməsi səbəbindən Cavabdeh 16 mart 2023-cü ildə ona öhdəlik pozuntusu barədə xəbərdarlıq etmək məqsədilə defolt bildirişi göndərmişdir (**Qoşma C-001**). Bununla belə, müvafiq problemlər aradan qaldırılmadığından Cavabdeh 20 iyun 2023-cü il tarixində Xitam Bildirişi (**Qoşma C-002**) verərək tam hüquqi əsaslarla HPBS-yə xitam vermişdir.

## HÜQUQİ MƏSƏLƏLƏR VƏ TƏLƏBLƏR

Cavabdeh hesab edir ki, mübahisə Arkadiya dövlətinin daxili qanunlarının təfsiri və suveren tənzimləmə səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqəli olduğuna görə, bu məsələyə arbitrajda baxıla bilməz və mübahisəyə baxmaq yalnız Arkadiya məhkəmələrinin yurisdiksiyasına daxildir.

Hətta arbitraj məhkəməsinin səlahiyyəti olsa belə, İddiaçının iddiası təmin edilməməlidir. İddiaçı xüsusilə investisiya, hasilat və Yerli bazar neftinin tədarükü ilə bağlı müqavilə öhdəliklərini əsaslı şəkildə pozmuşdur. Cavabdeh bu səbəbdən 20 iyun 2023-cü il tarixində Sazişə tam qanuni əsaslarla xitam vermişdir. İddiaçının iddia etdiyi kimi bu xitam ədalətsiz və ya əsassız deyil, HPBS-nin əhəmiyyətli pozuntuları nəticəsində həyata keçirilmişdir.

İddiaçı iddia edir ki, qazılmış quyuların sayı və investisiya xərclərindəki fərqlər əhəmiyyətli pozuntu kimi qiymətləndirilməməlidir. Bununla belə, Cavabdeh bildirir ki, Sazişin şərtlərinə ciddi riayət olunmalıdır və bu cür pozuntuların üst-üstə yığılması müqavilə öhdəliklərinin ciddi

şəkildə pozulması ilə nəticələnmişdir. Əlavə olaraq, Arkadiya qanunvericiliyi hasilat və Yerli bazar üçün müəyyən edilmiş neft tədarükü hədəflərinin icrasını dövlət üçün strateji məsələ kimi dəyərləndirir və bu hədəflərin pozulması ciddi nəticələr doğurur. Bu səbəbdən İddiaçının pozuntuları əhəmiyyətli pozuntu kimi qiymətləndirilməlidir.

İddiaçı bəzi çətinliklərlə əlaqədar olaraq ödəniş cədvəlinin yenidən tərtib olunmasını, Yerli bazar nefti kvotasının müvəqqəti azaldılmasını və bəzi tənzimləyici tələblərin "yumşaldılması"nı təklif etmişdir. Cavabdeh təklifləri qəbul etməmişdi və bildirmişdir ki, HPBS-də müəyyən edilmiş risk bölgüsü çərçivəsində bazar dəyişikliklərinin və iqtisadi dalğalanmaların yükü tamamilə İddiaçının üzərinə düşür. Eyni zamanda Cavabdeh Sazişin müvafiq maddəsində nəzərdə tutulmuş sabitləşdirmə maddəsinə istinad edərək şəraitin dəyişməsinin Sazişin yenidən müzakirə edilməsinə əsas vermədiyini bildirmişdir. Sazişdə nəzərdə tutulan risk bölgüsü məlumat mexanizmləri əsasında İddiaçı bazar risklərini öz üzərinə götürmüşdür.

İddiaçı HPBS-yə xitam verilməsini dolayı müsadirə kimi qiymətləndirərək kompensasiya tələb edir. Cavabdeh isə bildirir ki, İddiaçının maliyyə çətinlikləri onun qeyri-effektiv idarəçiliyi, qeyri-real proqnozları və riskləri düzgün qiymətləndirə bilməməsi ilə bağlı olmuşdur. Sazişə xitam verilməsi İddiaçının əhəmiyyətli pozuntuları nəticəsində həyata keçirildiyindən bu, müsadirə kimi dəyərləndirilə bilməz. Həmçinin Cavabdeh nə İddiaçının aktivlərini, nə də əməliyyatlarını öz nəzarətinə götürmüşdür.

Yuxarıdakıları nəzərə alaraq, Cavabdeh arbitraj məhkəməsindən xahiş edir ki, aşağıdakılarla bağlı qərar qəbul etsin:

1. Tərəflər arasındakı mübahisəyə arbitrajda baxıla bilməyəcəyi və işin Arkadiya məhkəmələrində həll edilməli olduğu bəyan edilsin.
2. Cavabdehin HPBS ilə bağlı müqavilə öhdəliklərini pozmadığı bəyan olunsun.
3. Pandemiyanın fors-major halı kimi qiymətləndirilməsinin hüquqi əsası olmadığı və İddiaçının müqavilə öhdəliklərini yerinə yetirməkdən azad edilmədiyi bəyan edilsin.
4. Cavabdeh tərəfindən HPBS-nin ləğvinin hüquqauyğun olduğu tanınsın.
5. Cavabdehin hərəkətlərinin dolayı müsadirə olmadığı, beləliklə İddiaçının kompensasiya və ya təzminat hüququnun yaranmadığı təsdiq edilsin.
6. Arbitraj və hüquqşünas xərcləri əsassız iddia qaldırdığı üçün İddiaçı tərəfindən ödənilsin.

**PROSESSUAL MƏSƏLƏLƏR**

Cavabdeh arbitraj məhkəməsinin səlahiyyətinin olmaması qənaətində olsa da, hazırki mərhələdə Nataliya İvanovanı arbitr olaraq təyin edir.

**ARKEN-in vəkili:** **Elena Mixayılova**

***Qoşma C-001 - Defolt bildirişi***

Republic of Arcadia
State Energy Company

**TELEFON :** +448 023 4429080
**ÜNVAN :** Arkadiya Respublikası, Nova Arkada, ARKEN Baş ofisi **TARİX :** 16 mart 2023

Hörmətli Conatan Bleyk,

Bu bildiriş 1 avqust 2015-ci il tarixli hasilatın pay bölgüsü Sazişi (HPBS) çərçivəsində Omex Energy BVI (Omex) tərəfindən yol verilmiş əhəmiyyətli müqavilə pozuntuları ilə bağlı rəsmi xəbərdarlıqdır.

Arkadiya Respublikasının Dövlət Enerji Şirkəti (ARKEN) tərəfindən aparılmış araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Omex HPBS çərçivəsində üzərinə götürdüyü əsas müqavilə öhdəliklərinə riayət etməmişdir. Belə ki, Saziş üzrə tələb olunan minimal investisiya məbləği və texniki-modernizasiya tədbirləri tam icra olunmamış, hasilat səviyyəsinin nəzərdə tutulan artım göstəricilərinə çatdırılması təmin edilməmişdir. Bundan əlavə, Omex HPBS-nin 14-cü maddəsinə əsasən hasil edilən neftin 20%-ni Arkadiyanın daxili bazarına güzəştli şərtlərlə tədarük etməli olduğu halda, bu öhdəliyi tam yerinə yetirməmiş və davamlı gecikmələrə yol vermişdir. Xüsusilə HPBS-nin müvafiq müddəalarına uyğun olaraq, bu bildirişin təqdim edildiyi tarixdən etibarən doxsan (90) gün ərzində Omex-in yuxarıda göstərilən pozuntuları aradan qaldırması və müqavilə öhdəliklərinə tam əməl etməsi tələb olunur.

Əgər Omex göstərilən müddət ərzində pozuntuları aradan qaldırmazsa və Sazişin şərtlərinə tam uyğun fəaliyyət göstərməzsə, ARKEN HPBS-yə birtərəfli qaydada xitam vermək və Omex-in müqavilə üzrə hüquqlarını dayandırmaq hüququnu özündə saxlayır.

Bu bildiriş hüquqi xəbərdarlıq xarakteri daşıyır və müqavilə üzrə bütün hüquq və vəzifələrə təsir edə bilər.

*L. Karpatios*

**LEONİDAS KARPATİOS**
Hüquqi məsələlər üzrə direktor

*+448 023 5648910*

*Arkadiya Respublikası,*
*Nova Arkada,*
*ARKEN Baş ofisi*

***Qoşma C-002 – Xitam Bildirişi***

Republic of Arcadia
State Energy Company

**TELEFON :** +448 023 4429080
**ÜNVAN :** Arkadiya Respublikası, Nova Arkada, ARKEN Baş ofisi

**TARİX :** 20 İyun 2023

Hörmətli Conatan Bleyk,

Bu bildiriş Arkadiya Respublikasının Dövlət Enerji Şirkəti (ARKEN) tərəfindən 1 avqust 2015-ci il tarixində imzalanmış Savalan yatağı üzrə bərpa və hasilatın pay bölgüsünə dair Sazişə (HPBS) əsasən Omex Energy BVI (Omex) şirkətinə təqdim edilir. ARKEN Omex-in Saziş üzrə öhdəliklərini yerinə yetirməməsi səbəbindən HPBS-yə birtərəfli qaydada xitam verdiyini bildirir.

Müvafiq sənədlər bildirişə əlavə olunmuşdur. (*Müsabiqə İşində təqdim olunmur*)

L. Karpatios

**LEONİDAS KARPATİOS**
Hüquqi məsələlər üzrə direktor

*+448 023 5648910*

*Arkadiya Respublikası,*
*Nova Arkada,*
*ARKEN Baş ofisi*